## Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Pakistanın ali ordeni ilə təltif olunub

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Pakistan İslam Respublikasının "Hilal-e Pakistan" ordeni ilə təltif olunub.

Pakistan Prezidenti Məmnun Hüseyn fevralın 11-də bu barədə Sərəncam imzalayıb.

"Hilal-e Pakistan" Pakistan İslam Respublikasının ali ordenidir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva "Hilal-e Pakistan" ordeni ilə təltif olunan ilk birinci xanımdır.

**AzərTAc.**



### QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2015-ci İLİN MART AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Böyük Pirəli kəndi | 03.03.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Çarxana kəndi | 10.03.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Çuxur Qəbələ kəndi | 17.03.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Zirik kəndi | 27.03.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Topbağ kəndi | 31.03.2015 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# Seminar-müşavirə





Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin təşkilatçılığı ilə fevralın 12-də Qəbələdə Şimal-qərb Regional Mərkəzində Şəhərsalma və Tikinti Məcəlləsi ilə bağlı zona seminar-müşavirəsi keçirilmişdir.

Müşavirədə ölkənin şimal-qərb bölgəsindən 10 şəhər və rayonun icra hakimiyyəti başçılarının müavinləri, baş memar və hüquqşünasları iştirak etmişlər.

Seminar-müşavirəni FHN-nin Şimal-qərb Regional Mərkəzinin rəisi, mayor Sadiq Bəkirli açıq elan edərək qonaqları salamlamışdır. Çıxışına davam edən natiq Şəhərsalma və Tikinti Məcəlləsinin qüvvəyə minməsi ilə əlaqədar əlavə və dəyişikliklərin olduğunu bildirmişdir.

Seminar-müşavirədə çıxış edən FHN-nin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin baş dövlət tikinti müfəttişliyinin sektor müdiri Kərim Ağayev tikintiyə icazənin verilməsi üzrə icraat, tikinti layihələrinin ekspertizası, tikinti işlərinin dayandırılması və obyektlərin sökülməsi, eləcə də Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində nəzərdə tutulan digər bölmələr üzrə əlavə və dəyişikliklərin mahiyyəti barədə ətraflı məlumat vermişdir.

Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin mütəxəssisləri və hüquq şöbəsinin əməkdaşları tərəfindən iştirakçılara yeni məcəllə ilə bağlı ortaya çıxan sənədləşmə prosedurları izah edilmişdir. Qeyd olunmuşdur ki, bundan sonra tikintiyə icazənin verilməsi ilə bağlı yeni qaydalara riayət olunmadan inşa edilən obyektlər qanunsuz sayılacaq və onlarla bağlı müvafiq hüquqi addımlar atılacaq. Eyni zamanda bildirilmişdir ki, tikintilər aparılarkən beynəlxalq dərəcəli avtomobil və dəmir yollarına, neft obyektlərinə və yanacaqdoldurma məntəqələrinə uzaqlıq tələblərinə ciddi riayət olunmalıdır. Əks təqdirdə, bu tikintilər qanunsuz hesab ediləcək və onlarla bağlı icazə sənədləri qüvvədən düşmüş sayılacaqdır.

Görüşdə iştirak edən yerli icra orqanlarının nümayəndələri yeni Şəhərsalma və Tikinti Məcəlləsindən irəli gələn məsələlərlə bağlı suallar səsləndirmişlər. Müfəttişliyin əməkdaşları tərəfindən onlara yeni sənədləşmə qaydaları ilə bağlı digər məsələlər də izah olunmuşdur.

Seminar-müşavirənin sonunda iştirakçılara hüquqi-normativ sənədlər, Məcəllənin tətbiqi ilə bağlı metodiki vəsaitlər paylanılmışdır.

**Oqtay MƏMMƏDOV.**

# Rayon icra hakimiyyəti Xocalı Soyqırımının 23-cü ildönümünün qeyd olunması ilə əlaqədar tədbirlər planı təsdiq etmişdir

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı 5 fevral 2015-ci il tarixli 13 nömrəli sərəncamla Xocalı Soyqırımının 23-cü ildönümü ilə əlaqədar rayonda həyata keçiriləcək tədbirlər planını təsdiq etmişdir. Tədbirlər planının həyata keçirilməsinə nəzarət üçün 10 nəfər məsul şəxs ayrılmışdır. Tərkibə rayon icra hakimiyyətinin məsul işçiləri, polis şöbəsinin, təhsil, turizm və mədəniyyət şöbələrinin və «Qəbələ» qəzetinin rəhbərləri daxil edilmişlər.

Tədbirlər planında Xocalı Soyqırımı Günü ilə bağlı bütün idarə və müəssisələrdə, ictimai təşkilatlarda, təhsil, səhiyyə, mədəniyyət ocaqlarında planauyğun şəkildə tədbirlər—anım günlərinin, xatirə gecələrinin, foto və rəsm sərgilərinin, ədəbi-bədii kompazisiyaların, Xocalıdan olan məcburi köçkünlərlə görüşlərin və s. kimi tədbirlərin keçirilməsi nəzərdə tutulur. Fevral ayının 25-də bütün məktəblərdə ilk dərslər Xocalı Soyqırımı Gününə həsr ediləcəkdir. Fevralın 26-da saat 17.00-da Xocalı Soyqırımı qurbanlarının xatirəsi rayon ərazisində bir dəqiqəlik sükutla yad olunacaqdır.

**"Qəbələ".**

# Qəbələdə əhalinin tibbi müayinəsi davam edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasın bütün ölkədə olduğu kimi Qəbələ rayonunda da əhalinin dispanzerizasiyası uğurla davam etdirilir. Bu məqsədlə rayon mərkəzi xəstəxanasında və rayon müalicə-diaqnostika mərkəzində həkim komissiyaları yaradılmış, bu komissiyalar hər gün iş vaxtında əhalini qəbul edir, onları diqqətlə müayinədən keçirir, müəyyən xəstəliklərlə bağlı şikayətlərini dinləyir və müvafiq tədbirlər görürlər. Rayonun uzaq kəndlərində yaşayan sakinlərini müayinə etmək üçün həkim briqadaları da yaradılıb. Məntəqələr, həkim briqadaları lazımi tibbi preparatlarla təmin edilib. Fevral ayının əvvəlindən bəri rayon üzrə 12.041 nəfər tibbi müayinədən keçirilmişdir. Müayinə edilənlərin 71 nəfəri stasionar müalicəyə, 1.000 nəfərə yaxını isə ambulator müalicəyə cəlb olunmuşdur. 42 nəfər isə Bakı şəhərinə və digər ixtisaslaşdırılmış müalicə ocaqlarına göndərilmişdir.



Ümumiyyətlə, 3 ay ərzində rayon üzrə 18 yaşından yuxarı 69.263 nəfərin tibbi müayinədən keçirilməsi nəzərdə tutulmuşdur.

Rayondakı müalicə-diaqnostika mərkəzində həkim Şəhla Seyidovanın verdiyi məlumata görə mərkəz üzrə 19429 nəfərin tibbi müayinədən keçirilməsi nəzərdə tutulmuşdur. Fevralın əvvəllərindən başlanan tibbi müayinə üzrə artıq 400-dən çox əhali dispanzerizasiyadan keçirilib. Tədbirlər planı üzrə rayonda fəaliyyət göstərən 13 təşkilatın, o cümlədən rayondakı muzeylərin, gigiyena epidemiologiya mərkəzinin, telekomun, Fövqəladə Hallar Nazirliyinin Şimal-Qərb Regional Mərkəzinin, şəhər 4 saylı tam orta məktəbinin və digərlərinin kollektivlərinin tibbi müayinəsi başa çatdırılmışdır. Müayinə məntəqəsi üzrə bu günə qədər ixtisaslaşdırılmış tibb ocaqlarına göndərilən xəstələr olmamışdır. Ehtiyacı olan yüngül xəstələr ambulator müalicəyə cəlb edilmişlər.

Rayonda əhalinin pulsuz tibbi müayinəsi davam edir. Bu müayinə may ayına qədər davam edəcəkdir.

**Nadir ATAKİŞİYEV.**